2023

# AİB-in FƏALİYYƏTİNƏ QISA NƏZƏR



Avropa İnvestisiya Bankı

**AİB-in fəaliyyətinə qısa nəzər**

**© Avropa İnvestisiya Bankı, 2023.**
98 -100, boulevard Konrad Adenauer
L-2950 Luxembourg
+352 4379-1
info@eib.org
www.eib.org
twitter.com/eib
facebook.com/europeaninvestmentbank
youtube.com/eibtheeubank

Bütün hüquqlar qorunur
Hüquqlar və icazələrin alınması ilə bağlı bütün suallar aşağıdakı e-poçt ünvanına yönləndirilməlidir: publications@eib.org

AİB-in fəaliyyəti barədə daha ətraflı məlumat üçün veb-saytımızı ziyarət etməyinizi xahiş edirik: www.eib.org
Aşağıdakı e-poçt ünvanı vasitəsilə də əlaqə saxlaya bilərsiniz: info@eib.org.
Elektron xəbər bülletenimizi www.eib.org/sign-up səhifəsi vasitəsilə əldə edə bilərsiniz

Təbiətin gücü heyrətamizdir. İnsanlar tarix boyu onun tufanlarından, daşqınlarından, quraqlıqlarından və vulkan püskürmələrindən qorxublar. Lakin hazırkı kritik bir dövrdə biz anlayırıq ki, öz hərəkətlərimizin səbəb olduğu iqlim dəyişikliyinin öhdəsindən gəlmək üçün təbiətlə həmahəng davranmalı, onun gücündən səmərəli istifadə etməliyik. Avropa İnvestisiya Bankının investisiyalarının yarıdan çoxu hazırda iqlim tədbirlərinə və ətraf mühitin dayanıqlılığına yönəldilib. Bizim prioritetimiz geotermal enerjidən tutmuş, hidroenerji və külək enerjisinə qədər, təbiətin bəxş etdiyi bərpa olunan enerji ehtiyatlarına keçidi maliyyələşdirməkdir. Məhz buna görə də, bu il biz əsas hesabatlarımızın üz səhifələrində bu təbii ehtiyatlara yer veririk.

© Fotonun müəllif hüququ: EIB, Eggtronic, Anaconda Biomed, GettyImages, Shutterstock.

Avropa İnvestisiya Bankı tərəfindən nəşr olunub.
FSC® kağızında çap edilib.

pdf: QH-04-22-272-AZ-N ISBN 978-92-861-5500-0 doi: 10.2867/460008

# AİB-in FƏALİYYƏTİNƏ QISA NƏZƏR

Avropa İnvestisiya Bankı (AİB) Avropa İttifaqının bankıdır. Biz dünyanın ən iri çoxtərəfli maliyyə institutu və iqlim tədbirlərinin ən böyük maliyyə təminatçılarından biriyik.

1958-ci ildə yaradılandan bəri, AİB Avropada və dünya ölkələrində layihələrə bir trilyon avrodan artıq investisiya etmişdir. İqlim dəyişmələri ilə mübarizə bizim hər bir addımımızın tərkib hissələrindən birini təşkil edir və fəaliyyətlərimiz aşağıdakı prioritet sahələrə köklənir: iqlim və ətraf mühit, inkişaf, innovasiya və bacarıqlar, kiçik və orta bizneslər, infrastruktur və birlik.

AİB qrupuna daxil olan Avropa İnvestisiya Fondu yeni bizneslər, artım, innovasiya, tədqiqat və işləmələr, məşğulluq və regional inkişaf üçün maliyyələşmə təmin etməklə, kiçik və orta bizneslərə dəstəyin göstərilməsi üzrə ixtisaslaşıb.

AİB Avropada inteqrasiyaya kömək etmək, Avropa İttifaqında inkişafı təşviq etmək və Aİ siyasətlərinə dəstək göstərmək üçün digər Aİ qurumları ilə əməkdaşlıq edir. Bu iş Avropanın hüdudlarından kənara çıxır: AİB 160 ölkədə aktiv fəaliyyət göstərir və hər il Avropa İttifaqında və dünyanın müxtəlif ölkələrində milyonlarla insanın həyatını yaxşılaşdırır.

Qarşılıqlı əlaqəlilik AİB-in mövcudluğu müddətində onun işinin özəyində yer almışdır. Avropanın hər yerinə yayılan AİB investisiyası Aİ ölkələrini bir araya gətirir. İnkişaf sahəsində maliyyələşdirmənin təsirini artırmaq məqsədilə 2022-ci ildə qurulmuş AİB-in Qlobal Mexanizmi ("AİB Qlobal") vasitəsilə, biz qlobal çağırışların həllinə kömək edir, bütün qitələrdə artım və imkanlar yaradırıq.

Çoxtərəfliliyin dəyərinin sual altına alındığı bir vaxtda, AİB-in fəaliyyəti vahid Avropa səylərinin gücünü daima xatırladır.



COVİD-19 virusunun yayılması nəticəsində, dünya tibbi və iqtisadi xarakterli qaçılmaz fövqəladə vəziyyətlərlə üzləşdi. Virusun yayılmasını məhdudlaşdırmaq məqsədilə peyvənd və həll yollarının tapılmasına təcili ehtiyac yarandı. AİB COVİD-19 əleyhinə peyvəndlərin hazırlanmasını və istehsalını maliyyələşdirib və Avropa İttifaqı daxilində və xaricində digər səhiyyə proqramlarına əsaslı dəstək verib. AİB qrupu həm də böhranın Avropa şirkətləri və iqtisadiyyatına iqtisadi təsirlərini nəzarət altına almaq üçün Aİ proqramlarına əhəmiyyətli dərəcədə töhfə verib.

COVID-19 böhranı səngiməyə başlayan kimi, Rusiya Ukraynanı işğal edərək yeni qlobal böhranı tətiklədi. Bu böhrana beynəlxalq cavab tədbirləri çərçivəsində, Bank Ukraynanın təcili ehtiyaclarını qarşılamasına kömək etmək üçün AİB-in Ukrayna üçün Həmrəylik Zərfi vasitəsilə maliyyə dəstəyini səfərbər etdi. Bundan əlavə, AİB Avropa Komissiyası ilə əməkdaşlıq şəraitində, hökumətə Ukraynada qalan insanlar üçün çox vacib dövlət xidmətlərini saxlamaqda kömək etmək üçün əlavə maliyyələşdirmənin təmin edilməsi üzərində işləyir.

Dünyanın ən iri çoxtərəfli kreditoru kimi, AİB iş yerlərinin yaradılması, bərabərliyin və dayanıqlılığın təşviqi vasitəsilə iqtisadiyyatların çiçəklənməsinə kömək edir. Biz dövlət və özəl sektoru təmsil edən tərəfdaşlarla işləyirik və öz uğurumuzu işimizin cəmiyyətə nə dərəcədə töhfə verməsi və toxunduğu insanların həyatını nə qədər yaxşılaşdırması ilə ölçürük.

AİB investisiyaları “yaşıl keçid”ə fəal şəkildə dəstək göstərir. Aİ-nin iqlim bankı olaraq, AİB dünyanın müxtəlif yerlərində həyata keçirdiyi fəaliyyətlər vasitəsilə, iqlim dəyişmələrinə dair beynəlxalq saziş — Paris Sazişi və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərində təsbit olunmuş öhdəliklərin yerinə yetirilməsinə kömək edir. Biz növbəti onillikdə iqlim və ətraf mühitin dayanıqlılığı üçün bir trilyon avro sərmayə ayırmağı öhdəmizə götürmüşük.

# 2022-Ci İLDƏ TƏSİRLƏRİMİZ

**260 milyard avro**

AİB-in fəaliyyətləri ilə dəstəklənən investisiya

**4.9 trilyon avro**

cəlb olunan ümumi investisiya

**72.45 milyard avro**

AİB Qrupu tərəfindən maliyyələşdirmə

**36.5 milyard avro**

"yaşıl" investisiyalar

**44.28 milyard avro**

istiqraz bazarlarında cəlb edilmiş kapital

**14.11 milyard avro**

kiçik bizneslər üçün maliyyələşdirmə

**18.72 milyard avro**

dayanıqlı enerji və təbii ehtiyatlar üçün maliyyələşdirmə

**15.52 milyard avro**

innovasiya, rəqəmsal və insan kapitalını gücləndirmək üçün

**5.3 milyon***

kiçik bizneslərdə qorunub saxlanılmış iş yerləri

* Rəqəmlər 2022-ci ilin sonunadək vasitəçilərlə imzalanmış əqdlər nəticəsində 2022-ci ildə AİB-in dəstəyindən və ya 2021-ci ilin oktyabr - 2022-ci ilin sentyabr ayları arasında AİF-in dəstəyindən faydalanmış kiçik müəssisələrə və orta bazar dəyərli müəssisələrə şamil olunur

## 2022-ci ildə AİB tərəfindən maliyyələşdirmə 65.15 milyard avro təşkil edib. Bundan 10.82 milyard avro AİB-in Qlobal Mexanizminin payına düşüb*

**25.4 milyon**

təmiz içməli su ilə təchiz olunmuş insanlar

**8.5 milyon**

enerji ilə təmin olunmuş ev təsərrüfatları

**17 milyon**

təkmilləşdirilmiş infrastrukturdan faydalanan insanlar

**6.6 milyon**

5G xidmətlərinə qoşulan yeni abunəçilər

**570.1 milyon**

ictimai nəqliyyatla edilmiş əlavə səyahətlər

**234 700**

daşqınlara məruzqalma riski azalmış insanlar

**15 800 MVt**

elektrik enerjisi istehsalı gücü, 100%-i bərpa olunan enerji ehtiyatlarından

**3.1 milyon**

qəbul mərkəzlərində və ya müvəqqəti sığınacaqlarda yerləşdirilmiş ukraynalı qaçqınlar

**150.4 milyon**

təkmilləşdirilmiş səhiyyə xidmətlərindən, o cümlədən COVİD-19 peyvəndlərindən faydalanan insanlar

* Avropa İttifaqı xaricində AİB Qrupu tərəfindən ümumi maliyyələşdirməyə AİB-in Qlobal Mexanizmindən əlavə, AİF-in Avropa İttifaqından kənarda həyata keçirdiyi layihələr və AİB-in Avropa Sərbəst Ticarət Birliyi çərçivəsində həyata keçirdiyi layihələr daxildir.


kraine

# UKRAYNAYA DƏSTƏK

Avropa İnvestisiya Bankı Ukrayna hakimiyyətinin və Ukrayna xalqının yanındadır. O, Ukraynanın müstəqilliyini dəstəkləyir.

Aİ və beynəlxalq ictimaiyyətin bu böhrana əlaqələndirilmiş cavab tədbirləri çərçivəsində, Bank hökumətin likvidliklə bağlı təcili ehtiyaclarını qarşılamasına kömək etmək üçün AİB-in Ukrayna üçün Həmrəylik Zərfi vasitəsilə maliyyə dəstəyini səfərbər etdi. Bundan əlavə, Avropa Komissiyası ilə əməkdaşlıq şəraitində, AİB Ukrayna Hökumətinin ölkədə qalan vətəndaşlara vacib dövlət xidmətlərini təqdim etməyə, eləcə də ərzaq, tibbi ləvazimatlar və yanacağın müyəssərliyini təmin etməyə davam edə bilməsi üçün əlavə maliyyələşmənin təmin edilməsi, eyni zamanda nəqliyyat, şəhər inkişafı və rəqəmsal layihələrin dəstəklənməsi üzərində çalışır. 2022-ci ildə iki əsas maliyyələşdirmə zərfi təsdiq olundu:

- 668 milyon avro məbləğində ilk zərf hökumətin təcili ehtiyacları qarşılaması üçün müharibə başlayandan qısa müddət sonra təsdiq edilib.

- 1.59 milyard avro məbləğində ikinci zərf zədələnmiş infrastrukturu təmir etmək və vacib layihələri davam etdirmək üçün 2022-ci ilin iyul ayında imzalanıb. Bu zərfin 1 milyard avrodan bir qədər böyük hissəsi ölkənin zədələnmiş avtomobil yollarını, körpüləri və dəmir yollarını təmir etməsinə kömək etmək üçün ödənilib.

Aİ bankının sosial və mədəni sahələr üzrə qurumu olan AİB İnstitutu da müharibədən zərər çəkmiş ukraynalılara humanitar yardım qismində 2.5 milyon avro ayırıb. Bank 59 milyon avro məbləğində qrantların təyinatının dəyişdirilərək Ukraynada qatarların və dəmir yollarının təmirinə, müharibə nəticəsində dağılmış körpülərin əvəzində müvəqqəti körpülərin inşasına və öz evlərini tərk etməyə məcbur olmuş insanlar üçün səhiyyə xidmətlərinin və yaşayış yeri ilə təminatın yaxşılaşdırılmasına yönəldilməsinə kömək edib.

Bank həmçinin icmaların, evlərini tərk etmiş 700 000 nəfərə yaxın insana qayğı göstərməsinə kömək etmək üçün Şərq Tərəfdaşlığı Texniki Yardım Trast Fondundan Ukraynaya təxminən 18 milyon avro dəyərində qrantlar ayırıb. Tərəfdaşlıq fondu Avstriya, Fransa, Almaniya, Latviya, Litva, Polşa, İsveç və Böyük Britaniya tərəfindən dəstəklənir. AİB Ukraynaya və ukraynalı qaçqınlara əlavə dəstək imkanlarını araşdırmaq üçün Avropadakı tərəfdaşları ilə işləməyə davam edir.



**AİB “Spindiag GmbH” şirkətinə 15 milyon avro kredit ayırıb. Kreditin məqsədi bu gənc şirkətin PZR əsaslı diaqnostik test platformasının səhiyyə müəssisələrində istifadə üçün hazırlanmasını maliyyələşdirməkdir.**

# COVID-19

AİB Avropa İttifaqının COVİD-19 pandemiyasına qarşı qlobal cavab tədbirlərinin ön sıralarında yer almış, təxirəsalınmaz tədbirlərin görülməsi üçün Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Uşaq Fondu kimi beynəlxalq təşkilatlarla birgə addım atmışdır.

AİB qrupunun fövqəladə hallar üçün dəstəyi son dərəcə qeyri-müəyyənliyə baxmayaraq, kiçik və orta bizneslərə və innovativ startaplara investisiya imkanı yaratmışdır. Biz Avropa Zəmanət Fondu ilə 200 milyard avro cəlb etməyi, bununla pandemiya səbəbindən çətinlik çəkən dayanıqlı şirkətləri dəstəkləməyi planlaşdırırıq.

AİB həmçinin, COVİD-19 əleyhinə peyvəndlərin, virusun yayılmasının qarşısını alan vasitələrin hazırlanması və satın alınmasını, habelə COVİD-19 böhranı ilə əlaqəli digər ictimai səhiyyə layihələrini maliyyələşdirməyə kömək etmişdir.

**Pandemiya dövründə AİB enerjiyə qənaət edən enerji çeviricisini ixtira edən İtaliyanın "Eggtronic" startap şirkətini maliyyələşdirib. Yüksək enerji səmərəliliyinə malik "Eggtronic" çeviriciləri bənzər cihazlarla müqayisədə daha az "karbon izi" buraxır.**



# İQLİM VƏ ENERJİ

İqlim dəyişikliyi dövrümüzün ən böyük qlobal sınağıdır. Uşaqlarımızın rifahı iqlim hədəflərinə nail olunmasından asılıdır. AİB-in iqlim və enerji ilə bağlı hədəfləri Avropa daxilində və xaricində yeni standartlar yaradır. Biz artıq mədən yanacaqları üzrə layihələri dəstəkləmirik və 2025-ci ilədək, investisiyalarımızın 50%-ni iqlim tədbirlərinə və dayanıqlılığa ayıracağıq.

Rusiyanın Ukraynaya təcavüzü Avropanı enerji böhranına sürükləyərək, təcili tədbirlərə ehtiyacı daha da aktuallaşdırdı. Bu işğal bizə enerji təchizatımızın təhlükəsizliyinin qorunmasının vacibliyini xatırlatdı: enerji təhlükəsizlik məsələsidir və karbonsuzlaşdırma strateji müstəqilik məsələsidir.

AİB-in fəaliyyətləri "yaşıl artım"ı və iqtisadiyyatların karbonsuzlaşdırılmasını sürətləndirir. Biz karbon emissiyalarının azaldılmasına və enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edən enerji səmərəliliyi və bərpa olunan enerji ehtiyatları üzrə layihələrə dəstək göstəririk. Bizim bütün tədbirlərimiz dayanıqlı sosial-iqtisadi artıma töhfə verir.

AİB investisiyaları həm də iqlim dəyişmələrinin həssas icmalara təsirlərinin aradan qaldırılmasına, biomüxtəlifliyin və dayanıqlı əkinçiliyin təşviqinə yönəlir. Biz təbii ehtiyatları qoruyub saxlayır, ətraf mühitin gələcək nəsillər üçün təhlükəsizliyini təmin edirik. AİB-in innovasiya, kiçik bizneslər və ya infrastruktur üçün dəstəklədiyi hər bir layihə iqlimlə bağlı məqsədlərimizə cavab verməlidir.



**AİB İspaniyanın "Anaconda" şirkətinə dəstək göstərib. Bu şirkət həkimlərə insultdan sonra həyatı xilas etməkdə kömək edən və əlilliyi azaldan, xərc baxımından səmərəli müalicə üsulu hazırlamışdır.**

# İNNOVASİYA

İnnovasiya Avropanın rəqabətliliyini qoruyur və yüksək dəyər yaradan iş yerləri yaradır. AİB innovasiyanın bir çox mərhələlərinə dəstək göstərərək, yaşayış standartlarını yaxşılaşdıran ideyalara dəstək olur.

Biz irimiqyaslı tədqiqat və işləmələrə, habelə kiçik, ixtisaslaşmış şirkətlərə dəstək göstəririk. Bizim telekommunikasiya, aviasiya, tibb və rəqəmsallaşma kimi sektorlara investisiyalarımız özəl sektordan həmin layihələrə əlavə maliyyələşmə cəlb etmək üçün “təsdiq möhürü” kimi çıxış edir. AİB Qrupu Avropa şirkətlərinə müasir texnologiyaları ərsəyə gətirmək və inkişaf etdirmək imkanı verir.

Bankın kreditləri sayəsində universitetlər öz elmi-tədqiqat təsisatlarını yarada və genişləndirə, startaplar öz heyətini genişləndirə, avadanlıqlarını yaxşılaşdıra bilirlər. AİB-in dəstəyi sayəsində müasir ideyalar uğurlu bizneslərə çevrilir.



**AİB Qərbi Balkan ölkələrində kiçik bizneslərə kredit verən aparıcı qurum olmaqla, 30 minə yaxın şirkətə kömək edib və yarım milyona yaxın iş yerini qoruyub saxlayıb. Bizim işimizin nəticəsi olaraq, Serbiyada 1800-dən artıq məktəb daha sürətli internet şəbəkəsinə və daha yaxşı rəqəmsal avadanlıqlara malikdir ki, bu da müəllimlərin pandemiya müddətində şagirdlərə distant təlim keçməsinə imkan verib.**

# İNKLÜZİVLİK

AİB kiçik biznesləri və gəncləri gücləndirir, qadın sahibkarlara dəstək göstərərək, onların kreditlərə və kouçinq imkanlarına çıxışını təmin edir. Biz aztəminatlı əhali, özünüməşğul şəxslər və mikromüəssisələrin layihələrinin uğur qazanması üçün onlar üçün maliyyələşmə və biznes məsləhətini əlçatan edirik.

Adətən, biz layihə dəyərinin ən çoxu, yarısını maliyyələşdiririk. AİB-in iştirakı özəl sektorun daha çox cəlb olunması üçün təkanverici qüvvə kimi çıxış edir, layihələr üçün cəlb olunan investisiya səviyyəsini artırır.



# DAYANIQLILIQ

AİB beynəlxalq kapital bazarlarında istiqrazlar buraxmaqla maliyyə vəsaitləri cəlb edir. Mükəmməl kredit reytinqimiz əlverişli dərəcələrlə vəsait cəlb etməyə imkan verir və bu üstünlükləri müştərilərimizə ötürürük.

AİB-in kapital bazarı üzrə ekspertləri yaşıl və dayanıqlı istiqraz bazarını yaratmış və inkişaf etdirmişdir. Biz hazırda dünyada yaşıl istiqrazların ən iri supramilli emitentiyik. Bu istiqrazlar bərpa olunan enerji, enerji səmərəliliyi, təmiz su və sanitariya xidmətlərinə dəstək göstərir.


Orange Money
Orange Money
5 000 F
100 F
100 F

**Konqodakı kiçik bizneslər pandemiya müddətində qeyri-rəsmi kreditorlardan çox yüksək dərəcələrlə kredit almaq əvəzinə, AİB-dən ədalətli faiz dərəcələri ilə kreditlər alıb və bu, kiçik bizneslərə və onların icmalarına kömək edib.**

# AİB QLOBAL

AİB-in inkişaf aləti kimi çıxış edən AİB-in Qlobal Mexanizmi (“AİB Qlobal”) inkişaf sahəsində maliyyələşdirməmizin təsirini artırmaq məqsədilə 2022-ci ildə qurulub. AİB ötən on il (2012-2022) ərzində özəl sektordan hər il milyardlarla avro həcmində investisiya cəlb etmiş, Avropa İttifaqından kənarda 70 milyard avro investisiya etmişdir. AİB-in Qlobal Mexanizmi dünyadakı yerli icmalara, şirkətlərə və qurumlara daha da yaxınlaşmaqla, AİB-in təsirini gücləndirir.

AİB insanların banklara çıxışının olmadığı bölgələrdə yerli mikromaliyyə institutlarına dəstəyini genişləndirəcək. İnsanlar kredit ala bildikdə biznes subyektləri daha çox işçi götürə, qadınlar daha müstəqil ola bilir, yerdəyişmə azalır və ev təsərrüfatları yoxsulluqdan xilas olmağın yolunu tapa bilir.

Biz biliklərimizi və təcrübələrimizi yerli tərəfdaşlarla bölüşərək, AİB-in yerli səviyyədə sektor üzrə təcrübə və səriştəsinin əlçatanlığını artıracağıq. Biz geniş spektrli ölkələrdə və sahələrdə iş təcrübəmizə söykənərək, müstəqil məsləhət təmin edirik. Bu məsləhət xidmətləri AİB-in maliyyə məhsullarını müşayiət edə, yaxud hər hansı maliyyələşmədən asılı olmadan da təqdim oluna bilər.


PEG

İqlim dəyişikliyi, COVİD-19 pandemiyası və digər böhranlar yeni tərəfdaşlıqlar və digər qlobal maliyyə institutları ilə davamlı əməkdaşlıq yolu ilə, beynəlxalq və milli tərəfdaş banklarla investisiya etdiyimiz milyardların trilyonlara çevrilməsini tələb edir. Ən vacibi isə odur ki, AİB-in iştirakı özəl sektorun iştirakını stimullaşdırmaqla, yeni investisiyalar cəlb edir.

Təkcə inkişaf etməkdə olan ölkələrin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə və Paris Sazişinin iqlim dəyişikliyinin aradan qaldırılmasına dair hədəflərinə nail olmaları üçün hər il əlavə olaraq 2 trilyon avro investisiya tələb olunur.

Aİ-nin iqlim bankı olaraq, AİB Avropa İttifaqının Avropa Yaşıl Sazişinə dəstək tədbirləri görür. Avropa Yaşıl Sazişi Avropa İttifaqının iqlim, enerji, nəqliyyat və vergitutma siyasətlərinin istixana qazlarını 2030-cu ilədək ən azı 55% azaltmasını (1990-cı illərin səviyyələri ilə müqayisədə) təmin etmək məqsədi daşıyır. Bununla belə, qlobal emissiyaların cəmi 10%-i Avropa İttifaqının payına düşdüyündən, AİB-in Qlobal Mexanizmi Avropanın karbonsuzlaşdırma səylərinin onun sərhədlərindən kənara çıxmasına kömək edərək, Qlobal Yaşıl Sazişə dəstək göstərəcək.

AİB-in Qlobal Mexanizmi Avropa Komissiyasının 300 milyard avro büdcəyə malik "Global Gateway" proqramının icrasında əsas müttəfiqlərindən biridir. Proqram rəqəmsallaşma, iqlim, nəqliyyat, səhiyyə, energetika və təhsil sahələrində qlobal və regional əlaqəlililiyi yaxşılaşdıran layihələrin dəstəklənməsinə yönəlir. İnkişaf kreditlərinin verilməsi və maliyyə tərəfdaşlıqları artımı sürətləndirir, kənd yerlərinin tərəqqisinə, şəhərlərin daha innovativ olmasına töhfə verir və iqtisadiyyatları gücləndirir.

AİB-in Qlobal Mexanizminin fəaliyyəti qadınların rəhbərlik etdiyi bizneslərlə iş aparmaqla, iş yerlərində gender bərabərliyini yaxşılaşdırmağa və qadınların hüquq və imkanlarını axtarmağa çalışan ölkələrə dəstək göstərir. Biz təmiz su, elektrik enerjisi, peyvənd, yaxşı səhiyyə xidmətləri və adekvat tullantı təmizləmə sistemlərinə çıxışı olmayan milyonlarla insana kömək edirik.



# ÖHDƏLİYİMİZ

Avropa İnvestisiya Bankı Aİ vətəndaşları qarşısında cavabdehlik daşıyır. Bank iqlim və ətraf mühitin dayanıqlılığı, innovasiya və bacarıqlar, infrastruktur, kiçik və orta sahibkarlıq, birlik və inkişaf daxil olmaqla, Avropa İttifaqının prioritet və məqsədlərini dəstəkləyir. AİB, enerji, nəqliyyat, sənaye və ya kənd təsərrüfatı sektorunda olmasından asılı olmayaraq, dəstəklədiyi bütün layihələrin Paris Sazişi ilə uzlaşmasını təmin edir. Bizim heyətimiz iqtisadçılar, mühəndislər, maliyyə analitikləri və iqlim mütəxəssislərindən ibarətdir və onlar dünyanın müxtəlif yerlərində yerli ekspertlər, təşkilatlar və hökumətlərlə gündəlik əsasda işləyirlər.



AİB Qrupu Avropa İnvestisiya Bankı (AİB) və Avropa İnvestisiya Fondundan (AİF) ibarətdir.

AİB Avropa İttifaqının bankıdır. O, dünyanın ən iri çoxtərəfli borcalan və borcverən qurumudur. Lüksemburqda mənzillənən Bank Avropanın daxilində və xaricində yerləşən yerli və regional ofislərdən ibarət geniş şəbəkəyə malikdir.

AİF Avropada və ondan kənardakı bir sıra ölkələrdə kiçik bizneslərin maliyyə resurslarına çıxışını yaxşılaşdırmaqla, onlara dəstək göstərir. AİF innovasiya və məşğulluğu təşviq etmək üçün vençur və artım kapitalı, zəmanətlər və mikromaliyyə alətlərini hazırlayır və inkişaf etdirir.

AİB-in Qlobal Mexanizmi AİB-in beynəlxalq inkişaf qoludur. 2022-ci ildə yaradılmış AİB-in Qlobal Mexanizmi AİB-in on illərlə inkişaf sahəsində maliyyələşdirmə, iqlim tədbirləri, innovasiya və dayanıqlılığa yönələn qətiyyətli səylərini davam etdirir.

02/2023 AZ pdf: ISBN 978-92-861-5500-0